Azərbaycan Respublikasının
Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin
İnkişafına
Dövlət Dəstəyi Fondu

## 9-cu istiqamət: Azərbaycançılıq ideyasının təbliği



# Möhtəşəm Zəfər paradı - Azərbaycanı dünyaya təqdim edən yeni brend...

**Azərbaycan xalqı tarixən mərd, cəsarətli, mətin, mübariz, dostuna sonacan sədaqətli, düşməninə isə amansız olub, torpağına göz dikənin gözünü ovub. Xalqımız öz dövlətini, dövlətçiliyini, torpağını düşməndən müdafiə edib, şəhid olub, amma qisasını yağıda, kəmfürsət düşməndə qoymayıb.**

Vətən müharibəsində Ali Baş Komandanımızın rəhbərliyi, siyasi iradəsi, güclü diplomatik məharəti nəticəsində Azərbaycan xalqı, Azərbaycan Ordusu, Azərbaycan dövləti bütün dünyaya sübut etdi ki, o heç zaman işğal faktı ilə barışmadı və öz torpaqlarını yağı düşmənin tapdağından azad etdi.

**Zəfərin mübarək, Azərbaycan!**

44 gün davam edən Qurtuluş savaşında - Vətən müharibəsində Azərbaycan Ordusu böyük hərbi güc, peşəkarlıq nümayiş etdirərək düşmənə həddini bildirdi, düşmənin dizini qırıb, gözünü kor etdi, işğalda olan torpaqlarımızı azad etdi. Bu gün Şuşa, Kəlbəcər, Laçın, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan və digər şəhərlərimiz, rayonlarımız, qəsəbələrimiz, kəndlərimiz düşmənin işğalçı qüvvələrindən azad edildi. Bu ərazilərimizdə üçrəngli Azərbaycan bağrağı dalğalanır. Azərbaycançılığın əbədi məhəng daşı olan üçrəngli bayrağımız bütün Azərbaycan vətəndaşlarını, dünya azərbaycanlılarını öz ətrafında birləşdirir. Bu gün hamımız, bütün dünya azərbaycanlıları, qardaş Türkiyə başda olmaqla Türk dünyası, Azərbaycana dost olan ölkələr, sevincimizə şərik olan bütün dövlətlər "Zəfərin mübarək, Azərbaycan!" deyir.

Dekabrın 10-da Azadlıq meydanında Vətən müharibəsində qazanılan qələbəyə həsr olunan möhtəşəm parad keçirildi. Azadlıq meydanında keçirilən hərbi paradda 3000 nəfərdən artıq şəxsi heyət, 150-dək hərbi texnika, o cümlədən, silahlanmaya yeni qəbul edilmiş müasir hərbi texnika, raket və artilleriya qurğuları, hava hücumundan müdafiə sistemləri, eləcə də hərbi gəmi və katerlər nümayiş etdirilib. Paradda, həmçinin, Vətən müharibəsi zamanı Azərbaycan Ordusunun darmadağın etdiyi düşməndən ələ keçirdiyi hərbi qənimətlərin bir qismi də nümayiş olundu. Belə ki, Azərbaycan Ordusunun Vətən müharibəsində məhv etdiyi düşmənə məxsus avtomobil və texnikaların nömrə nişanlarından ibarət nəhəng lövhə nümayiş olundu. Lövhə Azərbaycan Silahlı Qüvvələrinə məxsus hərbi texnikanın üzərində yerləşdirilib və lövhədə böyük hərflərlə "Qarabağ Azərbaycandır!" şüarı əks olunub.

**Azərbaycan dünyaya göstərdi ki, möhtəşəm zəfər qazanıb**

Tarixçilər və politoloqlar hesab edirlər ki, qələbə paradının keçirilməsinin həm tarixi, həm siyasi, həm də böyük ideoloji-mənəvi əhəmiyyəti var. Ekseprtlər qeyd edirlər ki, Azərbaycan dünyaya göstərdi ki, çox məkrli, təhlükəli bir düşməni məğlub edib, onu ərazilərindən qovub və qələbə qazanıb. Bunun çox böyük qələbə olduğunu deyən ekspertlər bildirirlər ki, Azərbaycan xalqı 28-30 ildir bu qələbənin həsrətində, sorağında idi və bu zəferi xalqımıza Ali Baş Komandanın rəhbərliyilə yenilməz Azərbaycan Ordusu bəxş etdi. Azərbaycanın cəbhədə qazandığı qələbə ilə Cənubi Qafqazda Ermənistanın timsalında cücərən, boy verən neofaşizmə ağır zərbə vurduğunu deyən tarixçilərin sözlərinə görə, ölkəmiz, ordumuz işğalçılıq siyasəti həyata keçirən, vəhşiliklər, vandalizm aktları törədən düşməni diz çökdürdü. Azərbaycan oğullarının qanı-canı bahasına qazandığımız bu zəfərin tariximizdə ayrıca yeri və çəkisi var.

**"Qələbə bayramı keçirmək hər xalqa, hər dövlətə qismət olmur, ancaq bizim xalqa, dövlətə nəsib oldu"**

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) A.Bakıxanov adına Tarix İnstitutunun aparıcı elmi işçisi, tarix elmləri doktoru Vaqif Abışov bizimlə söhbətində bildirdi ki, 10 dekabr qələbə paradının Azərbaycanın dövlətçilik tarixində, vətəndaşlarımızın, habelə dünya azərbaycanlılarının həyatında xüsusi yeru var. Bu qələbəni illərlə gözlədiyimizə diqqət çəkən V.Abışov qeyd etdi ki, Ali Baş Komandanın rəhbərliyilə Azərbaycan Ordusu bu qələbəni qazandı.

10 dekabr tarixində Azadlıq meydanında keçirilən möhtəşəm qələbə paradının həm böyük tarixi əhəmiyyəti olduğunu, həm də bununla Azərbaycan dövlətinin dünyaya bir mesaj verdiyini deyən V.Abışov hesab edir ki, Azərbaycan dünyaya yeni brend təqdim etdi. Qələbə paradının keçirilməsinin azərbaycançılığa da böyük töhfə olduğunu bildirən V.Abışov hesab edir ki, həm Vətən müharibəsi dövründə, həm də indiki qələbəmizi qeyd etdiyimiz vaxtda bütün dünya azərbaycanlıları, bütün Azərbaycan vətəndaşları dövlətimizə, ordumuza böyük dəstək verib, bununla da azərbaycançılığa bağlılıqlarını bir daha nümayiş etdiriblər.

"Qələbə bayramı keçirmək hər xalqa, hər dövlətə qismət olmur, ancaq bizim xalqa, dövlətə nəsib oldu. Düşünürəm ki, Zəfər bayramının, qələbə paradının Azərbaycan xalqının tarixində çox mühüm yeri var və bu bayram illər, əsrlər keçəndən sonra da bu cür möhtəşəm qeyd ediləcək. Azərbaycan xalqı bu Zəfər bayramına layiqdir. Çünki bu zəfəri xalqımız, dövlətimiz neçə-neçə igid oğlunun canı-qanı bahasına qazanıb. Bu zəfəri qazananlarımız arasında şəhidlərimiz də, qazilərimiz də olub. Hər biri bir qəhrəmandır. Demək istəyirəm ki, zəfəri qazanmağımız elə də asan olmayıb. 30 ildən sonra Ali Baş Komandanın rəhbərliyilə Azərbaycan Ordusu öz gücü, öz silahı, xalqımızın dəstəyilə bu Zəfər bayramına yüksəlib".

**"Biz nəinki öz regionumuza, eləcə də bütün dünyaya sübut etdik ki..."**

V.Abışovun sözlərinə görə, həm ali, həm orta məktəb dərsliklərində, həm də məktəbli gündəliklərində, şagird dəftərlərində bu tarixi qələbəmiz öz əksini tapacaq. O hesab edir ki, möhtəşəm qələbəmiz yalnız tarix dərsliklərində deyil, digər uyğun dərsliklərdə də əks olunmalıdır: "Biz nəinki öz regionumuza, eləcə də bütün dünyaya sübut etdik ki, Azərbaycan xalqı döyüşkəndir, qorxmazdır, şücaətlidir, öz torpaqlarını, Vətənini sevəndir və o heç zaman işğal faktı ilə barışmadı, öz torpaqlarını yağı tapdağında qoymadı. Bu baxımdan, tariximizdən süzülüb gələn bu ənənə indən sonra əsrlər boyu yaşayacaq. Minillər boyu Azərbaycan torpaqlarında müxtəlif dövlətlər qurulub, dövlətlər bir-birini əvəz edib, döyüşlər, müharibələr olub, lakin Azərbaycan xalqı öz dövlətçilik ənənələrini həmişə qoruyub saxlayıb. Bu gün də həmin dövlətçilik ənənəsinə xalqımız sadiqdir, bağlıdır. Azərbaycan bu möhtəşəm qələbə paradı ilə dünyaya göstərdi ki, bəli, Şərqdə öz torpaqlarını müdafiə etmək, ərazi bütövlüyünü bərpa etmək gücündə olan möhtəşəm bir dövlət var, onun yenilməz ordusu, böyük xalqı var. Mən bu zəfər paradını həm Azərbaycan vətəndaşları, həm dünya azərbaycanlıları üçün çox yüksək qiymətləndirirəm. Bu zəfər paytaxtımızda çox möhtəşəm bir Zəfər bayramı olaraq qeyd edildi. İnanıram ki, dünyanın digər ölkələrində də Azərbaycanın Zəfər bayramına səs verəcəklər".

**"Azərbaycan Ermənistanı məğlub etməklə nəinki ölkəmizi və regionu, bütövlükdə, dünyanı erməni faşizmindən xilas etdi"**

V.Abışov qeyd etdi ki, İkinci Dünya müharibəsində alman faşizmi üzərində qələbə qazanıldı, 44 günlük Vətən müharibəsində isə erməni faşizmi məğlub edildi: "Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı qələbə, eyni zamanda, erməni faşizmi üzərində qazanılan qələbədir. Bunu cənab Prezident özü də qeyd edib. Azərbaycan Ermənistanı məğlub etməklə nəinki ölkə və regionu, bütövlükdə, dünyanı erməni faşizmindən xilas etdi. Müasir dünyada Ermənistandan başqa heç bir dövlət qonşu dövlətlərin ərazilərinə qarşı iddialar irəli sürmür, öz xalqını nifrət ruhunda tərbiyə etmir. Amma Ermənistan XXI əsrdə də öz məkrli niyyətlərindən, siyasətindən əl çəkmirdi. Azərbaycan da Ermənistanın regiona və dünyaya təhdid olan bu məkrli siyasətini məhv etdi, onun başına yumruqla vurdu və göstərdi ki, sənin bu siyasətin uzun sürə bilməz. Ermənistanda neofaşizmin inkişaf etdiyini bütün dünya görürdü. Azərbaycan öz qələbəsi ilə Qafqazı bürüməkdə olan neofaşizmin qarşısını aldı. Ola bilsin ki, dünyanın bəzi dövlətləri erməni faşizmini anlamırlar. Xüsusən də Fransa. Biz Fransanın timsalında gördük ki, dövlət səviyyəsində erməni faşizminə, separatizminə dəstək verilir və sair. Eyni zamanda, bəzi Avropa dövlətləri anlamırlar ki, Azərbaycan hansı məkrli, qorxulu düşmənin başını əzib, bununla da monoetnik, faşist bir dövlətin dünyanı təhdid edən təhlükəsinin qarşısını alıb. Hesab edirəm ki, Azərbaycanın bu zəfəri dünya tarixinə də şərəfli bir səhifə kimi daxil olacaq. Çünki inanmıram ki, Qafqazda, Şərqdə Ermənistan kimi ikinci bir məkrli siyasət yürüdən, qonşularının ərazisinə göz dikən, təcavüzkarlıq siyasəti yürüdən, əsassız ərazi iddiları ilə çıxış edən ikinci bir dövlət olsun. Cənab Prezident də gözəl deyib ki, Ermənistan dövlətə layiq deyil, bayrağını qoltuğuna vurub getsin, hər hansı bir dövlətin tərkibində yaşasın. Azərbaycanın zəfərindən sonra inanıram ki, Cənubi Qafqazda belə faşist dövlət olmayacaq, olmamalıdır da. Olarsa da, onun başı əziləcək. Necə ki, Azərbaycan erməni faşizminin başını əzdi, inanmıram ki, Ermənistanın nə zamansa başını qaldırmağa cürəti çatar" - deyə V.Abışov bildirdi.

V.Abışov onu da qeyd etdi ki, Azərbaycanın qazandığı bu möhtəşəm qələbə azərbaycançılığın, dövlətçiliyin təntənəsidir.

***İradə SARIYEVA***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**